# Vətən ordusu






Qorxub çəkinmərik ölmdən, qandan,
Çıxdıq illər boyu çox imtahandan.
Bombalar yağsa da hər gün hər yandan,
Qorxub cəkinmərik ölümdən, qandan.
Dağlara səs salır hücüm borusu,
Haydı, marş irəli, Vətən ordusu.

Cərgəmizi pozmaz nə dərə, nə düz,
Döyüşə hazırdır qızıl süngümüz.
Hər gün döyüşlərdə vurduq birə-yüz.
Döyüşə hazırdır qızıl süngümüz.
Dağlara səs salır hüçüm borusu,
Haydı, marş irəli, Vətən ordusu.

Yaşa, qızıl əsgər, yaşa, min yaşa,
Atdığın güllələr cıxmasın boşa.
Yaşa, qızıl əsgər, yaşa, min yaşa,
Hücüm çək düşmənə, məhv et birbaşa.
Dağlara səs salır hücum borusu,
Haydı, marş irəli, Vətən ordusu.